UOT 94(479.24)

RƏNA ƏSƏDOVA
tarix üzrə fəlsəfə doktoru, dosent
AMEA Tarix İnstitutu, Azərbaycan Universiteti
ORCID: 0000-0002-0310-6201
rena-beyler@gmail.com

BİRİNCİ DÜNYA MÜHARİBƏSİ DÖVRÜNDƏ İRƏVAN QUBERNİYASINDA DEMOQRAFİK DƏYİŞİKLİKLƏR

DOI: https://doi.org/10.36719/2708-065X/103/43-47

XX əsrin əvvəllərində İrəvan quberniyası Rusiya imperiyasının iqtisadi cəhətdən sürətlə inkişaf edən bölgələrindən biri idi. Bu cəhət quberniyadakı əhalinin sayına, etno-demoqrafik proseslərə də güclü təsir göstərmişdi. Birinci dünya müharibəsi dövründə həm əhalinin sayında, həm də etnik tərkibində ciddi dəyişikliklər baş vermişdi. Təqdim edilən məqalədə bu dəyişiklikləri izləmək, onun doğurduğu nəticələri araşdırmaq qarşıya məqsəd qoyulmuşdur.

Açar sözlər: İrəvan quberniyası, əhali, demoqrafik dəyişikliklər, ermənilərin köçürülməsi, azərbaycanlıların sıxışdırılması.

Giriş. XIX əsrin sonlarından etibarən Azərbaycanın qərb bölgəsində - İrəvan quberniyasında kapitalist münasibətlərinin inkişafı, yeni sənaye sahələrinin yaranması, ticarət əkinçiliyinin inkişafı sosial-iqtisadi həyata ciddi təsir göstərdi. Tiflis-Aleksandropol (Gümri)-Qars və Aleksandropol-Uluxanlı-Culfa dəmir yolu xətləri çəkilməsindən sonra [1, s.145,147,152] Qərbi Azərbaycanın müxtəlif bölgələrində, xüsusən də İrəvan quberniyasının dəmir yoluna yaxın ərazilərində iqtisadi həyatın canlanması baş verdi. Dəmir yolu stansiyaları tədricən sənaye ocaqlarına, mühüm ticarət mərkəzlərinə çevrilməyə başladı, şəhərlərin böyüməsi, əmtəə-pul münasibətlərinin kəndə nüfuz etməsi prosesi sürətləndi. XX əsrin ikinci onilliyində bu proseslərin daha da intensivləşməsi [2] fonunda İrəvan şəhərində və İrəvan quberniyasında həm ümumi əhali sayının artımı sürətləndi, həm də quberniya əhalisinin etnik tərkibində digər xalqların nümayəndələrinin sayının artması baş verdi.

Doğrudur, bu göstəricilərə görə bəhs olunan dövrdə quberniya mərkəzi olan İrəvan şəhəri Qafqaz diyarının başlıca sənaye mərkəzi olan Bakı şəhərindən əsaslı şəkildə geri qalırdı, lakin İrəvan quberniyasının əhalisi də bəhs edilən sürətlə çoxalırdı. XIX əsrin sonlarına doğru, xüsusən də XX əsrin ilk onilliklərində İrəvan quberniyası, o cümlədən də eyni adlı qəza çoxmillətli regiona çevrildi. Birinci dünya müharibəsi ərəfəsinə və dövrünə aid statistik toplulardakı [3-7] məlumatlar bunu aydın şəkildə göstərir.

"1914-cü il üçün Qafqaz təqvimi"ndə verilmiş Qafqaz diyarında əhalinin sayı və etnik tərkibi haqqında 1913-cü il yanvarın 1-nə olan məlumata görə İrəvan şəhərinin və İrəvan qəzasının birlikdə əhalisinin etnik tərkibi çoxmillətli idi. Həmin vaxt İrəvan qəzasında, İrəvan şəhəri ilə birlikdə 202229 nəfər əhali yaşayırdı ki, onların 103919 nəfəri (51,4 faizi) müsəlman şiə və müsəlman sünni, yəni azərbaycanlı, 11357 nəfəri (5,6 faizi) müsəlman və yezidi kürd, 1809 nəfəri (0,9 faizi) rus, 80631nəfəri (39,9 faizi) erməni, qalanları da qaraçı, yəhudi və digər xalqların nümayəndələri idilər [3, отд. стат., с.130-133].

"1915-ci il üçün Qafqaz təqvimi"ndə verilmiş Qafqaz diyarında əhalinin sayı və etnik tərkibi haqqında 1914-cü il yanvarın 1-nə olan məlumata görə İrəvan qəzasında əhalinin etnik tərkibi çoxmillətli olaraq qalırdı. Həmin vaxt İrəvan qəzasında (İrəvan şəhəri ilə birlikdə) 176592 nəfər əhali yaşayırdı ki, onların 90302 nəfəri (51,1 faizi) müsəlman, yəni azərbaycanlı, 2379 nəfəri (1,3 faizi) rus, 73731 nəfəri (41,7 faizi) erməni, 6369 nəfəri (3,6 faizi) müsəlman və yezidi kürd, qalan az sayda əhali isə qaraçı, yəhudi və digər xalqların nümayəndələri idilər [4, отд. стат., с.250-253].

1913-cü və 1914-cü illərin etno-demoqrafik göstəricilərinin müqayisəsi göstərir ki, İrəvan qəzasında (İrəvan şəhəri ilə birlikdə) müharibədən əvvəlki il ərzində azərbaycanlı əhalinin sayı 10 min, ermənilərin sayı 7 min, kürdlərin sayı 5 min nəfər azalmış, yalnız rusların sayı 0,6 min nəfərə qədər

artmışdı. Bu dəyişikliklərə baxmayaraq, İrəvan qəzasında (İrəvan şəhəri ilə birlikdə) əhalinin yarıdan çoxunu azərbaycanlı əhali təşkil etməkdə idi.

"1916-cı il üçün Qafqaz təqvimi"ndə verilmiş Qafqaz diyarında əhalinin sayı və etnik tərkibi haqqında 1915-ci il yanvarın 1-nə olan məlumata görə İrəvan qəzasında əhalinin etnik tərkibi çoxmillətli olaraq qalırdı. Həmin vaxt İrəvan qəzasında (İrəvan şəhəri ilə birlikdə) 174479 nəfər yaşayırdı ki, onların 89950 nəfəri (51,6 faizi) müsəlman, yəni azərbaycanlı, 2218 nəfəri (1,3 faizi) rus, 75332 nəfəri (43,2 faizi) erməni, 3485 nəfəri (2 faizi) kürd, qalanları da qaraçı, yəhudi və digər xalqların nümayəndələri idilər [5, отд. стат., с.46-49].

1914-cü və 1915-ci illərin etno-demoqrafik göstəricilərinin müqayisəsi göstərir ki, İrəvan qəzasında (İrəvan şəhəri ilə birlikdə) müharibənin birinci ili ərzində azərbaycanlı və rus əhalisinin sayında ciddi dəyişiklik olmamış, kürdlərin sayının azalması davam etmiş, yalnız ermənilərin sayı 2 min nəfərə qədər artmışdı.

Rəqəmlərdən göründüyü kimi, Birinci dünya müharibəsinin başlandığı 1914-cü il ərzində İrəvan qəzasında əhalinin ümumi sayı 2113 nəfər azalmışdı ki, bu azalmanın da əhəmiyyətli hissəsi kürd əhalinin payına düşürdü. Həmin il azərbaycanlı əhalinin sayı 352 nəfər azalmış, əksinə erməni əhalinin sayı 1601 nəfər artmışdı. Əhalinin tərkibindəki bu dəyişikliyin səbəbi Qafqaz cəbhəsində hərbi əməliyyatların başlanması ilə əlaqədar cəbhəyə yaxın bölgələrdən erməni ailələrinin Cənubi Qafqazın içərilərinə, o cümlədən İrəvan qəzasına köçüb yerləşməsindən qaynaqlanırdı. Azərbaycanlı və müsəlman kürd əhalinin sayının azalması isə İrəvan müharibə başlandıqdan sonra quberniyasında qatı erməni millətçiliyinin yenidən baş qaldırması ilə bağlı idi.

"1917-ci il üçün Qafqaz təqvimi"ndə verilmiş Qafqaz diyarında əhalinin sayı və etnik tərkibi haqqında 1916-cı il yanvarın 1-nə olan məlumata görə İrəvan qəzasında əhalinin sayı azalmaqda davam edirdi. Həmin vaxt İrəvan qəzasında 154331 nəfər yaşayırdı ki, onların 74227 nəfəri (48,1 faizi) azərbaycanlı, 1435 nəfəri (0,9 faizi) rus, 69650 nəfəri (45,1 faizi) erməni, 6724 nəfəri (4,4 faizi) kürd, qalanları da qaraçı, yəhudi və digər xalqların nümayəndələri idilər [6, отд. стат., с.218-221].

Bu statistik göstəricilərdən aydın olur ki, İrəvan qəzasında Birinci dünya müharibəsinin ikinci ili boyunca, yəni 1915-ci il yanvarın 1-dən 1916-cı il yanvarın 1-nə kimi əhalinin ümumi sayı 20148 nəfər azalmışdı. Bu da başlıca olaraq, azərbaycanlı əhalinin sayında 15723 nəfər azalma ilə əlaqədar idi. Faiz etibarı ilə də azərbaycanlıların sayı 1915-ci il ərzində 3,5 faizə qədər azalmışdı. 1915-ci il boyunca İrəvan qəzasında erməni əhalinin sayı 4081 nəfər azalmışdı. Bu da İrəvan qəzasına daha öncə köçmüş ermənilərin daha təhlükəsiz və yaşayış üçün əlverişli saydıqları Tiflis, Bakı kimi şəhərlərə köçmələri ilə bağlı idi. Həmin il kürdlərin sayında da ciddi dəyişiklik olmuş, lakin azərbaycanlı və erməni əhalidən fərqli olaraq, onların sayı 3239 nəfər artmışdı. Əhalinin tərkibindəki bu dəyişikliyin səbəbi Qafqaz cəbhəsində kürdlərin kompakt yaşadığı bölgələrdə hərbi əməliyyatların genişlənməsi ilə əlaqədar cəbhəyə yaxın bölgələrdən kürd ailələrinin Cənubi Qafqazın içərilərinə, o cümlədən İrəvan qəzasına köçüb yerləşməsi ilə birbaşa bağlı idi.

Birinci dünya müharibəsi ərəfəsi və dövründə bütövlükdə İrəvan quberniyasında əhalinin sayında və etnik tərkibində önəmli dəyişikliklər baş vermişdi. "Qafqaz təqvimi"nin 1914, 1915, 1916 və 1917-ci illər üçün toplularının statistika bölmələrindəki məlumatlar əsasında tərtib edilmiş 1 saylı cədvəldə Birinci dünya müharibəsi və dövründə İrəvan quberniyasında əhalinin sayında və etnik tərkibində baş vermiş dəyişikliklər əks olunmuşdur.

1 saylı cədvəl.

İrəvan quberniyasında əhalinin sayı və etnik tərkibi

illər	*cəmi*	*O cümlədən*				
		azərbay-canlı	*erməni*	*rus*	*kürd*	*digər*
1913	1071560	384348	607717	14875	56659	7961
1914	1044097	372823	600279	16408	51133	3454
1915	1065914	382121	613559	16161	47828	6245
1916	1120242	379582	669711	16103	48555	6291

Cədvəldən aydın olur ki, 1913-cü il yanvarın 1-nə olan məlumata görə İrəvan quberniyasında etno-demoqrafik vəziyyət faiz göstəricisi ilə ifadədə aşağıdakı kimi idi: əhalinin ümumi sayında azərbaycanlıların payı 35,9 faiz, ermənilər 56,7 faiz, kürdlər 5,3 faiz, ruslar 1,4 faiz təşkil edirdi. Yerdə qalan azsaylı əhali isə yəhudi, qaraçı və digərləri idilər [3, отд. стат., с.130-135].

Bu əvvəlki onilliklərlə müqayisədə çox böyük artım idi. Belə ki, 1886-cı ilə aid statistik məlumatlara görə, İrəvan quberniyasında 670405 nəfər, 1897-ci ildə 829550 nəfər əhali yaşamışdı, yəni müqayisə edilən 11 il ərzində159145 nəfər çoxalmışdı ki, bu da faizlə Qafqaz üzrə ən yüksək göstərici idi [7, c.32-35]. 1897-ci ildən 1902-ci ilə kimi də İrəvan quberniyasında əhalinin sayı yüksək sürətlə artmaqda davam etmiş və 891058 nəfərə çatmışdı [7, c.44-45]. Bu artımın başlıca səbəbi Osmanlı imperiyasının şərq vilayətlərində erməni qiyamlarının yatırılması ilə bağlı oradan erməni qaçqınların kütləvi şəkildə Cənubi Qafqaza, xüsusən İrəvan quberniyasına köçüb yerləşməsi idi.

Bütövlükdə isə, Birinci dünya müharibəsi ərəfəsində 27 il əvvələ nisbətən, yəni 1886-cı ildən keçən müddət ərzində İrəvan quberniyası əhalisinin ümumi sayı 401155 nəfər artmışdı ki, bu artımda erməni qaçqınlarının köçü mühüm yer tuturdu.

1913-cü il ərzində İrəvan quberniyasında etno-demoqrafik vəziyyətdə müəyyən dəyişikliklər baş vermişdi. 1914-cü il yanvarın 1-nə olan məlumata görə, quberniya əhalisinin sayında əvvəlki 30 ildə ardıcıl davam etmiş artım dinamikası dayanmış, əks proses baş vermişdi. 1 saylı cədvəldən göründüyü kimi 1913-cü il boyunca İrəvan quberniyasında əhalinin sayı 27463 nəfər azalmışdı. Bu statistik göstəricilərdən aydın olur ki, İrəvan quberniyasında 1914-cü ilin əvvəlində azərbaycanlı, erməni və kürd əhalinin sayında azalma olmuş, yalnız rusların sayında 1533 nəfərlik artım olmuşdu.

1915-ci il yanvarın 1-nə olan statistik göstəricilərin təhlili göstərir ki, İrəvan quberniyasında əhalinin sayı da, etnik tərkibi də 2 il əvvəlki göstəricilərə yaxın olmuşdu. Həmin vaxt quberniya əhalisinin milli tərkibi aşağıdakı kimi idi: azərbaycanlılar 35,9 faiz, ermənilər 57,6 faiz, kürdlər 4,5 faiz, ruslar 1,5 faiz. Bu göstəricilərə görə, 1915-ci ildə 1913-cü ilə nisbətən yalnız ermənilərin sayı 1 faizə qədər artmışdı.

"1917-ci il üçün Qafqaz təqvimi"ndə verilmiş Qafqaz diyarında əhalinin sayı və etnik tərkibi haqqında 1916-cı il yanvarın 1-nə olan məlumata görə İrəvan quberniyasında əhalinin sayında bir il ərzində 54328 nəfər artım olmuşdu. Bu da azərbaycanlı əhalinin həmin müddətdə 2539 nəfər azalması fonunda erməni əhalisinin 56152 nəfər artması hesabına baş vermişdi [6, отд. стат., с.216-221]. İrəvan quberniyasında əhalinin etnik tərkibində aşağıdakı dəyişiklik baş vermişdi: həmin vaxt ərzində azərbaycanlı əhalinin sayı 33,9 faizə düşmüş və ya 2 faiz geriləmiş, ermənilərin sayı isə əksinə 2,1 faiz artaraq 59,8 faizə yüksəlmişdi. Həmin vaxt ruslar ümumi əhalinin 1,4 faizini, kürdlər isə 4,3 faizini təşkil etmişdilər ki, bu da onların faiz göstəricilərində ciddi dəyişiklik olmadığını əks etdirirdi.

1 saylı cədvəldəki statistik göstəricilərdən aydın olur ki, İrəvan quberniyasında 1913-cü ilə nisbətən 1916-ci ildə Birinci dünya müharibəsi ilə əlaqədar əhalinin sayında və etnik tərkibində əhəmiyyətli dəyişikliklər baş vermişdi. 1913-cü ildən 1916-cı ilə kimi əhalinin ümumi sayı 48664 nəfər çoxalmışdı ki, bu da azərbaycanlı və kürd əhalinin azalması fonunda, erməni əhalinin təbii artması hesabına deyil, erməni qaçqınların köçü hesabına, yəni mexaniki olaraq 61994 nəfər artması ilə birbaşa bağlı idi. Çünki həmin müddətdə azərbaycanlı əhalinin sayı 4766 nəfər, kürd əhalinin sayı 8104 nəfər azalmışdı.

Quberniyada yaşayan erməni ailələri bu regiona əsasən XIX əsrin 20-ci illərinin sonlarından etibarən köçürülməyə başlanmışdı. Bu erməni ailələri başlıca olaraq Qacarlar İranı və Osmanlı imperiyasından köçürülərək keçmiş İrəvan xanlığı ərazisində məskunlaşdırılmışdılar. XIX əsrin 90-cı illərindən etibarən İrəvan quberniyasında ermənilərin sayı yenidən sürətlə artmağa başlamışdı ki, bu da artıq yuxarıda qeyd edildiyi kimi, Osmanlı imperiyasının şərq vilayətlərində erməni qiyamlarının yatırılması ilə bağlı oradan erməni qaçqınların kütləvi şəkildə Cənubi Qafqaza, o cümlədən xüsusən İrəvan quberniyasına köçüb yerləşmələri ilə bağlı idi.

Birinci dünya müharibəsi ərəfəsində rus əhalisinin sayında da artım müşahidə edilirdi. Bu dövrdə rus ailələrnin daha çox Cənubi Qafqaz dəmir yolunun quberniyadan keçən xətləri boyunca məskunlaşması baş verirdi. Onların əsas məşğuliyyəti taxılçılq, heyvandarlıq, bağçılıq və qismən də yükdaşıma idi.

Ümumiyyətlə, rusların Cənubi Qafqaza, o cümlədən İrəvan bölgəsinə kütləvi köçürülməsi XIX əsrin 30-cu illərindən başlanmışdı. Həmin vaxt çar hakimiyyəti nümayəndələri bir qayda olaraq mərkəzi quberniyalarda yaşayan və rəsmi kilsə ilə münaqişədə olan təriqətçiləri köçürməyə üstünlük verirdi [8, c.49]. Təriqətçi olmayan, rəsmi sənədlərdə dini etiqadı pravoslav kimi qeyd edilən rus əhalisinin Cənubi Qafqaza, o cümlədən sonradan İrəvan quberniyasına aid ediləcək ərazilərə köçürülməsi daha sonrakı onilliklərdə həyata keçirilməyə başlanmışdı. Lakin həmin dövrdə Qafqaz diyarında torpaq quruluşunun nizamlanmaması səbəbindən, həmçinin yerli azərbaycanlı əhalinin torpağa tələbatının ödənilməsini qaydaya salmadan, rus əhalisinin geniş miqyasda köçürülməsini təşkil etmək mümkün olmadı. Yalnız XX əsrin əvvəllərindən etibarən, İrəvan quberniyasına rus əhalisinin köçürülməsi istiqamətində addımlar atıldı. Bu regiona rus ailələri Rusiyanın Avropa hissəsindən, xüsusən də Poltava, Çerniqov, Xarkov quberniyalarından və Kuban vilayətindən köçürülüb yerləşdirildi [8, c.349]. Artıq Birinci dünya müharibəsi ərəfəsində İrəvan quberniyasında yaşayan rus ailələrinin yarıdan çoxunu sonradan köçürülmüş pravoslav ailələri təşkil edirdi. 1914-cü il yanvarın 1-nə olan məlumata görə İrəvan quberniyasında 16408 nəfər rus yaşayırdı ki, onların da 9453 nəfəri pravoslav, 6955 nəfəri təriqətçi idi [4, отд. стат., с.250-253].

Çar Rusiyasının yeritdiyi milli müstəmləkəçilik siyasətinə görə, türk-müsəlman əhali etibarsız hesab edilir və döyüşən orduya xidmətə cəlb edilmirdi. Lakin müharibə başlandıqdan az sonra cəbhələrdə ağır insan itkiləri Rusiya hakimiyyətini məcbur etdi ki, hərbi xidmətə çağırışla bağlı siyasətində qismən dəyişiklik etsin. Çar II Nikolayın 25 iyun 1916-cı il tarixli fərmanı ilə Rusiya imperiyasında hazırkı müharibə müddətində hərbi mükəlləfiyyətdən azad edilən şəxslərin müsadirə qaydasında cəbhəarxası işlərə cəlb edilməsinə başlandı. Bu fərmana uyğun olaraq, imperiyada yaşayan və xristian olmayan "qeyri-xalqlar"ın 18-43 yaşında sağlam kişiləri cəbhəarxası işlər üçün səfərbərliyə alındı. Qafqaz canişinliyi tərəfindən bu fərmanın icrası gedişində 1916-cı il ərzində Cənubi Qafqazda, o cümlədən İrəvan quberniyasında yaşayan azərbaycanlı kənd əhalisinin əmək qabiliyyətli hissəsinin 30 faizi təsərrüfat işlərindən zorla ayrıldı, istehkam və digər müdafiə xarakterli tikinti işlərinə, hərbi təyinatlı yüklərin daşınması, yüklənməsi və boşaldılması işinə cəlb edildi [2, s.87]. Müharibə başlandıqdan sonrakı dövrdə azərbaycanlı və müsəlman kürd əhalinin sayındakı azalmanın əsas səbəbi də bu idi.

1916-cı il yanvarın 1-nə olan məlumata görə, İrəvan quberniyasında 570 nəfər yəhudi, 693 nəfər qaraçı yaşayırdı [6, отд. стат., с.220-221] ki, bu göstəriciyə görə İrəvan quberniyası Cənubi Qafqazın digər quberniyalarından geri qalırdı.

Nəticə. 1913-1916-cı ilə aid statistik məlumatların təhlili göstərir ki, Birinci dünya müharibəsinin başlanmasından sonra keçən müddət ərzində İrəvan quberniyasında davamlı olaraq əhalinin yarıya qədərini azərbaycanlılar təşkil etməkdə idi. Eyni zamanda rus əhalinin sayında müharibə dövründə hərbi səfərbərliklə əlaqədar azalma olmuşdu. Erməni əhalisinin sayında isə müharibə dövründə hərbi səfərbərliyə baxmayaraq azalma baş verməmiş, əksinə artım baş vermişdi. Bu da Şərqi Anadoludan qaçqın düşən erməni ailələrin quberniyada yerləşdirilməsi hesabına idi.

ƏDƏBİYYAT

Azərbaycan dilində

1. Əliyev Q.Ə. Qafqazda nəqliyyatın inkişafı. Bakı: "Turxan" NPB, 2019, 400 s.
2. Əsədova R.B. Birinci dünya müharibəsi və Şimali Azərbaycan iqtisadiyyatı. Bakı: "Turxan" NPB, 2015, 200 s.

Rus dilində

3. Кавказский календарь на 1914 г. Тифлис: Гл. упр. Кавказ. Наместника, 1913, отд. Статистический, с.130-133.
4. Кавказский календарь на 1915 г. Тифлис: Гл. упр. Кавказ. Наместника, 1914, отд. Статистический, с.228-233.
5. Кавказский календарь на 1916 г. Тифлис: Гл. упр. Кавказ. Наместника, 1915, отд. Статистический, с.102-105.
6. Кавказский календарь на 1917 г. Тифлис: Гл. упр. Кавказ. Наместника, 1916, отд. Статистический, с.190-193.

7. Кавказский календарь на 1903 г. Тифлис: Гл. упр. Кавказ. Наместника, 1902, отд. Статистический, с.22-41; 32-35; 44-45.
8. Исмаил-заде Д.И. Русское крестьянство в Закавказье: 30-е годы XIX – начало XX в. М., «Наука», 1982, 310 с.

РЕНА АСАДОВА
кандидат исторических наук, доцент Института истории НАНА,
Азербайджанский Университет

ДЕМОГРАФИЧЕСКИЕ ПЕРЕМЕНЫ В ЭРИВАНСКОЙ ГУБЕРНИИ В ГОДЫ ПЕРВОЙ МИРОВОЙ ВОЙНЫ

В начале XX века Эриванская губерния была одним из экономически быстро развивающихся регионов Российской империи. Этот аспект оказал сильное влияние на численность населения и на этнодемографические процессы в губернии. В годы Первой мировой войны произошли серьезные изменения как в численности населения, так и в этническом составе. Цель представленной статьи – проследить за этими изменениями и исследовать их последствия.

Ключевые слова: Эриванская губерния, население, демографические изменения, переселение армян, притеснение азербайджанцев.

RENA ASADOVA
PhD in history, associate professor ANAS Institute of History,
Azerbaijan University

DEMOGRAPHIC CHANGES IN ERIVAN PROVINCE DURING THE YEARS FIRST WORLD WAR

At the beginning of the 20th century, the Erivan province was one of the economically rapidly developing regions of the Russian Empire. This aspect had a strong impact on the population and ethno-demographic processes in the province. During the First World War there were major changes in both population and ethnic composition. The purpose of this article is to follow these changes and explore their consequences.

Keywords: Erivan province, population, demographic changes, resettlement of Armenians, oppression of Azerbaijanis.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 30 noyabr 2023-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 dekabr 2023-cü il.
Rəyçilər: t.e.d. Qabil Əliyev, t.e.d. Anar İsgəndərov.